BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# XIX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ BOLQARISTAN-RUSİYA ƏLAQƏLƏRİ

**Z.N.NURİYEVA**
***Bakı Dövlət Universiteti***
***nuriyevaz-@mail.ru***

*Rus-bolqar xalqlarının çoxəsrlik tarixi əlaqələrində X1X əsrin 50-60-cı illəri əhəmiyyətli yer tuturdu. Milli dövlətçiliyini itirmiş bolqar xalqları həmin dövrdə yenidən müstəqil dövlət quruculuğuna başlayırlar. Ölkədə kapitalist münasibətlərinin inkişafı, milli burjuaziya və mədəniyyətin formalaşması, milli-azadlıq hərəkatının yüksəlməsi bolqar dövlətinin müstəqilliyinin əldə edilməsini sürətləndirirdi.*

*Kapitalizm mərhələsinə qədəm qoyan Bolqarıstan xarici siyasət fəaliyyətində özünə yaxın müttəfiq kimi Rusiyaya daha çox üstünlük verirdi. Bu dövrdə Rusiya ilə olan əlaqələr bolqar xalqının milli-azadlıq hərəkatına, onun müstəqillik əldə etməsinə öz böyük təsirini göstərmişdir.*

*XIX əsrin 50-60-cı illərinin genişmiqyaslı, hərtərəfli əlaqələrinin öyrənilməsi hər iki ölkə alimlərinin diqqət mərkəzində olmuşdur və bu əlaqələrin siyasi, ictimai, inqilabi, mədəni sahələrdəki fəaliyyətindən bəhs edilmişdir.*

XIX əsrin 50-60-cı illəri rus və bolqar xalqlarının çoxəsrlik tarixi əlaqələrində əsas yer tutur, 50-ci illərin sonlarından isə bu xalqların çoxsahəli əlaqələrinin yeni mərhələsi başlayır.

Bolqarıstanın tarixində XIX əsrin ikinci yarısı tarixi inkişaf baxımından böyük əhəmiyyət kəsb edir. Bolqar-rus əlaqələri bolqar milli oyanışı dövründə (XVIII əsrin ikinci yarısı-XIX əsrin 70-ci illəri) daha səmərəli inkişaf etməyə başladı. Milli dövlətçiliyini itirmiş bolqar xalqı bu dövrdə yenidən müstəqil dövlət quruculuğuna başladı. Kapitalist münasibətlərinin inkişafı, bolqar milli burjuaziyasının formalaşması, milli mədəniyyətin təşəkkülü, müstəqil bolqar dövlətinin bərpasına yönəldilmiş milli-azadlıq hərəkatındakı nailiyyətlər bu dövrün əsasında dururdu (1, 4). Eyni zamanda göstərilən yüzillikdə Rusiyanın xarici siyasətində «bolqar məsələsi» mühüm yer tuturdu. Bolqar xalqının qədim zəngin mədəniyyəti rus səyahətçiləri və alimlərinin marağına səbəb olmuşdu. Rus diplomatiyası və bir sıra ictimai dairələr Dunayətrafı hadisələrin yalnız keçmişinə deyil, müasir tarixinə də daha çox diqqət yetirirdilər (1, 5).

Həmin dövrdə sosial-iqtisadi inkişafında kapitalizm mərhələsinə qədəm qoyan Bolqarıstan siyasi fəaliyyətində dəyişiklik etmək üçün xarici siyasətində özünə yaxın müttəfiq kimi Rusiyaya üstünlük verirdi. Rusiya ilə əlaqələr bolqar xalqının milli-azadlıq hərəkatının yüksəlişinə kömək etməklə bərabər, Bolqarıstanın müstəqillik əldə etməsinə də təsirini göstərmişdir. XIX əsrin 50-60-cı illərində bolqar-rus əlaqələrinin tarixi əhəmiyyətinin hərtərəfli öyrənilməsi iki ölkə alimlərinin diqqət mərkəzində olması ilə izah edilir. Əvvəlki nəsillərdən faktiki tarixi materiallar toplamaqla

yeni elmi araşdırmalar əsasında göstərilən dövrdə iki ölkənin siyasi, ictimai, inqilabi, mədəni əlaqələrini açıqlamışlar (1,5; 6,119).

Məşhur bolqar tarixçisi Jak Natan daxili və xarici siyasətin, milli-azadlıq hərəkatı, milli mədəniyyətin yüksəlişi ilə yanaşı, kapitalizmin inkişafının Bolqarıstanın tarixində irəliyə doğru addım atdığını göstəri. Bolqarıstanın digər məşhur tarixçisi D.Kosev ümumiləşdirilmiş mühazirələri əsasında yazılmış kitablarında bolqar burjuaziyasının meydana gəlməsi, mədəni maarif hərəkatı, kəndli üsyanları, kapitalist münasibətləri haqqında ətraflı məlumat verirdi. Rus-bolqar əlaqələri tarixinin tanınmış tarixçisi K.Poqlubko, baxmayaraq ki, Rusiyada olan bolqar mühacirlərinin fəaliyyəti tarixi ilə xüsusi olaraq məşğul olmamışdır, amma tədqiq olunan problemin əsas tərəfləri onun əsərlərində öz əksini tapmışdır. İlk növbədə bolqar burjua mühacirlərinin yalnız fəaliyyətindən deyil, ictimai və inqilabı hərəkata münasibətlərindən, bir-birinə zidd fikir ayrılığından, ixtilaflardan, eyni zamanda Rusiyaya təhsil almağa göndərilən bolqarlara azadlıq uğrunda mübarizə aparan sadə bolqar sakinlərinə göstərdikləri köməkdən bəhs olunur (11, 218). K.Liluaşvili – Bolqarıstanın mədəni həyatı ilə yanaşı XIX əsrdə apardığı siyasi mübarizədən, rus və avropa dövlətləri ilə əlaqələrindən bəhs etmişdir (7, 205). Bolqarıstan tarixində – iqtisadi inkişaf, kapitalizmin bərqərar olmasının əsasını təşkil edən sosial-iqtisadi sistemin, xarici siyasətin təhlili verilməklə yanaşı, bolqar burjuaziyasının formalaşması prosesi və ictimai iqtisadi, siyasi həyatda rolundan da bəhs olunmuşdur (4, 506).

XIX əsrin 50-ci illərində baş verən kəndli üsyanları da ictimai-siyasi hərəkatda müəyyən rol oynayırdı. 1850-ci ilin iyun ayında Bolqarıstanın şimal-qərbində 15 min kəndli və şəhərin yoxsul təbəqəsindən ibarət olan kütləvi silahlı üsyan antifeodal və siyasi xarakter daşıyırdı. Balkan yarımadasında bolqar xalqının azadlığı tələbi ilə qoyulan ümumbolqar üsyanının əks-sədası bütün avropaya o cümlədən də Rusiyaya yayıldı. Bu hadisədən sonra bolqar xalqının Rusiyaya müraciəti başladı. 1853-cü ilin avqust-sentyabr aylarında minlərlə bolqarın imzası ilə rus imperatoruna kömək məktubu ilə müraciət edildi. Demək olar ki, Bolqarıstanın hər yerindən, eyni zamanda ətraf hüdudlarından kənarda yaşayan bolqarlardan da rus hökumətinə müraciətlər olundu. 1853-cü ilin iyul ayının sonlarında bütün ümidlərinin Rusiyadan asılı olduğunu etiraf edən 209 nəfərin imzası ilə Sviştov şəhərinin icması I Nikolaya müraciət etmişdir. 1853-cü ilin avqust ayının ortalarında da Bolqarıstanın avropa hissəsindən və müxtəlif rayonlarındakı icma rəhbərlərinin imzası ilə çara müraciət göndərildi. Siyasi hüquqsuzluq, güclü iqtisadi böhranın bolqar ticarəti, əkinçiliyi və maldarlığının sərbəst inkişaf etməsinə imkan vermədiyi göstərilirdi (1, 23). 1853-cü ilin sentyabrında ölkənin şimal-qərbindən 33 deputat Bolqarıstandakı rus ordusunun baş qərargahına gələrək ərizə ilə çara müraciət etdi. Rusiyaya göndərilən çoxsaylı müraciətlər Bolqarıstanda burjua-demokratik, iqtisadi və sinfi məzmununu saxlamaqla Milli inqilabın yetişməsinə təsir edirdi. Şərq böhranının kəskinləşməsi ilə bağlı bolqar vətənpərvərləri silahlı üsyana ciddi hazırlaşırdılar ki, bu da rus ordusunun Bolqarıstana girməsinin vaxtını müəyyənləşdirirdi.

Doğrudan da, XIX əsrin 50-ci illərinin əvvəllərində Osmanlı İmperiyası və Qərbi-Avropa dövlətləri ilə Rusiya arasında gərgin münasibətlər yaranmışdı. Rusiya ilə Türkiyə arasındakı iqtisadi, siyasi, ideoloji, bir-birinə ziddiyyətli, eyni zamanda qərbin qabaqcıl kapitalist dövlətləri arasındakı münasibətlər 1853-1856-cı illər müharibəsinə gətirib çıxardı (10, 285).

Göstərilən dövrdə milli mədəniyyətin inkişafı, «milli kilsə» təşkilatının yaradılması, silahlı üsyan yolu ilə siyasi azadlığa çıxmaq uğrunda mübarizədə Rusiya siyasətinin əlverişli rolu olmuşdur. Kapitalist münasibətlərinin formalaşmağa başladığı dövrdə milli-azadlıq hərəkatının yüksəlməsini müşayət edən yeni yaranmış bolqar burjuaziyası siyasi azadlıq, mədəniyyət, milli dil uğrunda mübarizəyə qoşuldu. Hətta bolqar burjuaziyası Rusiyaya hərbi kömək etməyə səy göstərirdi (1, 253). Bolqarıstan milli hərəkatının münayəndələri – Dunay knyazlığı və Rusiyanın cənubundaki mühacirlər rus dövlətinin hərbi-siyasi addımları ilə öz çıxışlarını birləşdirməyə cəhd göstərirdilər. Hətta bolqar mühacirləri ilə bərabər xalqın bir hissəsi rus ordusuna kömək məqsədilə könüllülərdən ibarət xüsusi hərbi dəstələr təşkil edirdilər.

İri burjuaziya nümayəndələri rəsmi Rusiyanın bolqar məsələsi ilə maraqlanmasına daha çox can atırdılar. Onların məqsədi gələcək müstəqil bolqar dövlətində öz siniflərinin siyasi ağalığını təmin etmək idi. Lakin müharibə çar Rusiyasının məğlubiyyəti ilə başa çatır (1, 34-35). Məğlub olmasına baxmayaraq demək olar ki, müharibə illərində bolqar milli-azadlıq mübarizəsi daha fəal olmuşdu. Lakin bolqar vətənpərvərləri geniş xalq çıxışlarını yerlərdə lazımi səviyyədə hazırlaya bilməmişdilər. Hansı ki, müharibə illərində Bolqarıstandakı Baş qərargahda rus ordusu komandanlığı ilə bolqar icması nümayəndələrinin birgə gizli mübarizə planı hazırlanmışdı. Rusiyanın müharibədəki uğursuzluğu bolqar hərəkatını, onların qarşısında qoyulan yeni planları, həmçinin bolqar-rus münasibətlərini mürəkkəbləşdirdi (13, 154).

XIX əsrin 50-ci illərinin əvvəllərində azadlıq uğrunda ümummilli miqyasda kütləvi mübarizəyə rəhbərlik üçün qabaqcıl vətənpərvərlərin gücü ilə bolqar siyasi mərkəzi yaratmağa cəhd göstərdilər. Bu cəhd bolqar inqilabı milli azadlıq hərəkatının tanınmış, görkəmli xadimi Georgi Rakovskinin adı ilə bağlıdır. Həyat təcrübəsi onu belə bir nəticəyə gətirib çıxarmışdı ki, bolqar xalqının milli azadlığı uğrunda mübarizədə silahlı mübarizə yolu zəruridir (8,109; 5, 374). O, 50-ci illərin əvvəllərində xalqı rus ordusu ilə birlikdə mübarizəyə hazırlamaq məqsədilə gizli cəmiyyət yaradır (12, 83). Buna cavab olaraq bir çox yerlərdə belə cəmiyyətlər təşkil olunur. Rakovskinin yaxın silahdaşlarından olan A.Konkoviçin rəhbərliyi ilə mərkəzi Sviştov şəhəri olmaqla tacirlər dəstəsinin təsiri ilə üsyana ciddi hazırlıq görülürdü. Bu barədə rus ordusuna da ətraflı xəbər verilirdi. Rus komandanlığı da öz növbəsində müxtəlif yollarla bolqar silahlılarından məlumat alırdı (4, 524; 5, 267).

Siyasi özbaşınalığın artmasına qarşı azadlıq hərəkatının nümayəndələri bütün istiqamətlərdə çıxışlar edirdilər. 50-ci illərin sonlarından həm kilsə uğrunda, həm inqilabi mübarizədə G.Rakovski və onun tərəfdarları bolqar milli siyasi özünüdərkin möhkəmləndirilməsinin açıq (leqal) formasını yaymaqla bərabər, həm də inqilabi çıxışların ideoloji hazırlığını irəli sürürdülər. Milli özünüdərkin inkişafı ictimai-siyasi hərəkatın yüksəlişinə təkan verməklə yanaşı, Rusiya xalqlarının inqilabi təcrübəsindən bəhrələnən və getdikcə fəallaşan inqilabi ideoloqlar bolqar xalqına müraciətlər səsləndirirdilər (3, 228).

Milli-azadlıq hərəkatının yüksəlişi, Şərq böhranının kəskinləşməsi Dunay knyazlığının və Rusiyanın cənubunda yaşayan bolqar burjuaziyasının daha da fəallaşmasına səbəb oldu. Onlar rus ordusu komandanlığı ilə bolqar xalqı arasında əlaqəni gücləndirmək məqsədilə müstəqil təşkilatlar yaratmaq üçün tədbirlər görürdülər. 1854-cü ilin əvvəllərində Buxarest bolqar ticarət burjuaziyasının varlı təbəqələrini birləşdirən Bolqar Mərkəzi Komitəsi (Epitropiya) yaradılır. Əsas məqsəd vətən uğ-

runda özünü könüllü qurban verənlərə və fədai dəstələrinin yaradılıb formalaşdırılmasına kömək göstərməkdən ibarət idi (1, 26).

Odessa bolqar mühacirləri 1853-cü ildən daha fəallaşaraq xaricdə yaşayan bolqarlarla əlaqə yaradır, hətta onlara təhsil sahəsində yardım göstərirdilər. 1854-cü ildə Odessada yaşayan bolqarlar daha bir siyasi təşkilat Odessa-bolqar qəyyumluğu orqanını yaratdılar. Odessa gömrüyünün qulluqçusu N.Palayzov onun rəhbəri olmaqla yanaşı, həm də fəal üzvü idi (7, 49). Odessa orqanının üzvləri Rusiyanın rəsmi dairələrinə bolqar xalqının vəziyyəti ilə daha dərindən maraqlanmaq barədə müraciət edirdilər. Rus diplomatiyası nümayəndələrinə və komandanlığına təqdim etmək üçün Palayzovun çoxsaylı qeydlərində həmin müraciətlər şərh olunmuşdu. Onlar Bolqarıstanın azadlıq ümidlərini Rusiyanın köməyindən asılı olmasında görürdülər (14, 432). Həmin illərdə azadlıq hərəkatının metod və yolları mühacirlərin baxışlarında getdikcə daha mükəmməl formalaşırdı. Burjuaziyanın yuxarı təbəqəsi Bolqarıstanın milli – azadlıq hərəkatını Rusiyanın Balkan siyasəti ilə bağlılığında görürdülər. Rəsmi təsdiq olunmuş Odessa orqanı vasitəsilə mühacirlərin rəhbərləri maarifçilik fəaliyyəti ilə məşğul olur, məktəblərə kömək məqsədilə Rusiyaya gələn bolqarlara yardım edirdilər. Bütövlükdə bu orqan bolqar xalqının milli mədəni hərəkatına, təhsilin, maarif, elm, mədəniyyətin inkişafına kömək və yardım edəcəyini qarşısına məqsəd qoymuşdu (4, 252; 2, 113).

XIX əsrin 60-cı illərinin ikinci yarısında Odessa bolqarları bu orqan ətrafında öz fəaliyyətlərini daha da canlandırdılar. 1867-1868-ci illərdə Odessa orqanı üsyana hazırlıq görülməsi barədə Rusiyaya da məlumat vermişdi. Azadlıq mübarizəsinə hazırlıq məqsədilə bolqar burjuaziyasının yuxarı təbəqəsi Bolqarıstanın müdafiəsinin təmin edilməsi tələbi ilə əhəmiyyətli təkliflərlə Rusiyanın ictimai və dövlət dairələrinə müraciət etdilər. Lakin Bolqarıstanın azadlığı üçün burjuaziya nümayəndələrinin çoxillik xidmətləri təşkilatın ümüdünü doğrultmadı (13, 154).

Krım müharibəsində məğlubiyyətindən sonra Rusiya hökuməti iki ölkə arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsini vacib bildi. Bolqar burjua dairələrinin maraq və cəhdlərinə uyğun olaraq rus hökuməti 1858-ci ildə Moskvada Slavyan xeyriyyə komitəsi yaratdı. Sonralar belə komitələr Peterburq, Kiyev, Qazan, Odessa, Kişinyovda da yarandı. Eyni zamanda Balkanlarda öz mövqeyini itirmək təhlükəsində olan Rusiya bütün slavyanların çar Rusiyası ətrafında birləşməsini təmin edən Slavyan komitəsi kimi ictimai təşkilatların da yaradılmasını zəruri hesab edirdi. Rusiyanın Balkan siyasətində yeni metoda keçməsi, ilk növbədə Bolqarıstanda rus konsulluğunda rəsmi nümayəndəliyinin yerləşdirilməsi ilə əks olunur. Bu dövrdə bolqar ictimai xadimləri N.Qerov və N.Palayzov Rusiya Xarici İşlər Nazirliyinin ünvanına onların ölkəsində rus konsulluğunun açılmasının vacibliyini əsaslandırmışlar. Əlbəttə, qərarlaşdırılmış yeni konsulluğun açılması Rusiyanın siyasi maraqlarına cavab verirdi. 1865-ci ildə Rusiya konsulluğunun yaranması ilə bağlı Bolqarıstanın Plovdiv, Varna, Tırnov, Ruse şəhərlərində onun əsas məntəqələri də yaradıldı (3, 38).

Rusiyanın balkanlarda rəsmi fəaliyyəti ilə əlaqədar bolqar-rus münasibətlərinin tarixi inkişafının yeni mərhələsi başlayır. XIX əsrin 60-70-ci illərinin burjua islahatlarının həyata keçirilməsi də rusiyanın xarici siyasətinə təsir etdi, bolqar rus ictimai əlaqələri əhəmiyyətli dərəcədə yüksəlməyə başladı.

Bolqar milli oyanışında Rusiyanın cənub bolqarlarının iştirakı bu xalqların çoxəsrlik əlaqələrinin işıqlı səhifəsini göstərir. Bolqarıstandakı hadisələrdən asılı ola-

raq Rusiyanın cənubundakı bolqar mühacirləri bolqar xalqının milli azadlıq, inqilabi və mədəni hərəkətlərinə kömək zəminində öz fəaliyyətlərini qurmuşlar. Bu, ilk növbədə mühacirlərin Krım müharibəsində fəal iştirakı ilə də xarakterizə olunur (2, 113). Məlumdur ki, Rusiyaya gələn bolqar mühacirləri varlı tacirlərdən ibarət olmaqla bərabər hətta özlərinin iri ticarət şirkətlərini də yaradırdılar. Əsasən bolqar milli – azadlıq və mədəni hərəkatını dəstəkləyən çoxlu sayda bolqar tacirləri Odessada yaşayırdılar. Onlar mühacir təşkilatlarının fəaliyyətində bolqar xalqının azadlıq uğrunda mübarizəsini Rusiyanın Bolqar siyasəti ilə əlaqəsində görürdülər (2, 7).

Müasir sovet və bolqar tarixşünaslığında da bolqar mühacirlərinin tarixi fəaliyyətinə böyük maraq oyanmışdı. Məşhur sovet tarixçisi S.A.Nikitin özünün iri həcmli əsərlərində Odessa-bolqar orqanının yaranma tarixindən, onun rus ictimaiyyəti, Rusiyadakı slavyan komitələri ilə əlaqəsindən, 50-ci illərdə bolqar milli – azadlıq, inqilabi və mədəni hərakatına göstərdiyi köməkdən, milli maarifin inkişafından ətraflı bəhs etmişdir (9, 112). Tədqiqatçılarda ən çox maraq doğuran məsələlər bolqar mühacirlərinin xüsusilə də Odessa maarifinin, Rusiya təhsilinin konkret köməyi, rus – bolqar mədəni əlaqələrində onların rolundan bəhs etmək olmuşdur (2, 8; 3, 12). Mühacirlər öz fəaliyyətlərini Bolqarıstanla sıx əlaqə müqabilində Rusiyanın rəsmi əhatəsi səviyyəsində həyata keçirmək məqsədi güdürdülər. Rusiyanın cənubundakı bolqar mühacirlərinin siyasi baxışlarında xeyli irəliləyiş baş vermişdi ki, bunun da nəticəsində onların səyi ilə sonralar Odessa-bolqar komitəsi ( 1867 ), Kişinyev bolqar cəmiyyəti ( 1871 ) yaranır ( 2, 114 ).

Rusiyanın cənubundakı bolqar kəndlərinin, Odessa, Belqrad, Kişinyov, Ren şəhərlərinin bolqar əhalisi Bolqarıstan milli azadlıq hərəkatına köməklik göstərirdilər. Beləliklə, Rusiyanın cənub bolqarlarının iştirakı ilə göstərilən illərdə bolqar milli oyanışına, milli azadlıq inqilabı hərəkatına, elm, mədəniyyət, maarifin inkişafına dəstək verilmişdir (2, 115). Xeyli sayda bolqarlar vətənlərini tərk edərək qonşu ölkələrə, əsasən də Dunay ətrafına, Rusiyaya yayılırdılar. İlk bolqar tacirlərinin Moskvaya gəlişi hələ XVIII əsrin sonlarından ehtimal olunur. Ticarətin inkişafı nəticəsində hətta bir sıra bolqar tacirlərinin Moskvada ticarət şirkətləri mövcud idi. Odessa limanı açıldıqdan sonra demək olar ki, bütün bolqar şirkətləri Moskvadan Odessaya köçürüldü.

Bolqarıstan inqilabi Komitəsi də ölkədə ümummilli azadlıq üsyanlarının hazırlanmasında böyük iş görürdü. 60-cı illərin sonlarında iki ölkənin inqilabi təşkilatlarının əməkdaşlığı möhkəmlənməyə başladı. Bu zaman azadlıq hərəkatının daha yüksək yeni pilləyə qalxmasının əsas xidməti bolqar milli inqilabının üzərinə düşürdü. Bolqar – rus siyasi əlaqələrinin fəallaşması bolqar inqilabçılarının şəffaflaşan ideya mövqeyinin xalqın milli hüququnun qorunmasına səbəb olduğunu göstərir. Rus inqilab təbliğatçıları 60-cı illərdə Rusiyada təhsil alan gəncləri bolqar milli hərəkatının inqilabi yolla getməsini dəstəkləməyə səsləyirdilər. Azadlıq hərəkatının yüksəlməsinin çətinliklərinə, təşkilatçıların müxtəlif baxışlarına baxmayaraq bolqar inqilabçıları tarixi məsələnin həllinin öhdəsindən gəldilər (13, 215).

Bolqar-rus əlaqələri elmi, həm də siyasi – tərbiyəvi əhəmiyyət daşıyırdı. Əsrlər boyu rus – bolqar ictimai-siyasi əlaqələrində yeni – vahid təhsil sisteminin çatışmazlığının vacibliyini irəli sürmüşlər. Məktəblərin saxlanılması, yoxsul uşaqlara yardım edilməsi, yaşlı əhali arasında maarifləndirmə işinin aparılması məqsədilə xeyriyyə cəmiyyətləri yaradılırdı. 1868-ci ildə Stara – Zaqorda təhsil problemi ilə bağlı bolqar müəllimlərinin ilk qurultayı keçirildi. Bolqar mədəniyyətinin inkişafı ümummilli

xarakter daşıyırdı. Mühacirdə olan bolqarların da fəaliyyəti milli – mədəni hərəkatla bağlı idi. Yaranmış ictimai mədəni-maarif təşkilatları milli – mədəniyyətin inkişafının əsas vəzifələrını yerinə yetirirdilər. Ziyalılar, qabaqcıl ictimai xadimlər, mühacirlər bolqar xalqının mədəni həyatını idarə edə biləcək ümummilli xarakter daşıyan institutlar yaranmasını müzakirə edirdilər. Sonralar Bolqar Elmlər Akademiyasının nəzdində olan belə bir təşkilat Bolqar ədəbi cəmiyyəti adı altında 1969-cu ildə Breildə yaradıldı (8, 106).

XIX əsrin 60-cı illərinin mədəni tərəqqisi bolqar ədəbiyyatının yüksəlişinə səbəb oldu. Krım müharibəsindən əvvəl yalnız 4 dövrü çap olunurdusa, 60-cı illərdə 9 jurnal, 20-dən çox qəzet, 640 yeni kitab nəşr olunmuşdu. Onlar, əsasən, Konstantinopol, Belqrad, Buxarest, Odessa, Moskva və başqa şəhərlərdə çap edilirdi. Eyni zamanda rus ədəbiyyatının təsiri altında bolqar ədəbiyyatının müxtəlif janrları yaranırdı. Göstərilən dövrdə bolqar incəsənəti də əsas mərhələni təşkil edirdi. 1865-ci ildə Breildə bolqar milli teatr cəmiyyətinin əsası qoyulur. Xüsusi tədris müəssisələrinin yaranması bolqar gənclərində maraq oyadırdı. 50-60-cı illərdə bütöv bir rəssamlar qrupu Moskva rəssamlıq məktəbində və Peterburq rəssamlıq Akademiyasında ixtisaslaşmışlar (1, 94; 6, 35).

Ümumiyyətlə, rus-bolqar qarşılıqlı əlaqələrinin genişlənməsi və möhkəmlənməsi Bolqarıstanın azadlığına doğru yetişmiş tarixi məsələnin həllinə yönəlmişdi.XIX əsrin ikinci yarısında Bolqarıstanın tarixində bütöv bir çevriliş baş vermişdi. Bolqarıstanın qarşısında duran əsas məqsəd-ölkəni yadelli işğallardan xilas etmək, kapitalizmin, burjua cəmiyyətinin, sərbəst ticarətin inkişafına yol açmaq, bolqar milli dövlətinin yaranmasına nail olmaqdan ibarət olmuşdu.

## ƏDƏBIYYAT


1. Болгаро-российские общественно-политические связи 50-70-е гг. Х1Х в. Кишинев: Штиинца, 1986, 267 с.
2. Забунов И.Д. Болгары юга России и национальное болгарское возрождение в 50-70 гг. Х1Х в. Кишинев: Штиинца, 1981, 160 с.
3. Из истории русско-болгарских отношений. М.: Акад. Наук СССР, 1958, 291 с.
4. История на България XV-XIX век. София: Фонд, Анубис, 2006, 576 с.
5. История южных и западных славян. М.: МГУ, 2001, 687 с.
6. Константинов П. Сокровища Болгарии. София: Любородие, 2003, 225 с.
7. Лилуашвили К.С. Национально-освободительная борьба болгарского народа против фанариотского ига и Россия. Тбилиси: ТГУ, 1978, 220 с.
8. Məmmədov H. Bolqarıstan tarixi. Bakı: Elm və Təhsil, 2009, 271 s.
9. Никитин С.А. Очерки по истории южных славян и русско-балканских связей в 50-70-е годы Х1Х в. М., Наука, 1970, 328 с.
10. Орлов А.С., Полунов А.Ю., Терещенко Ю.Я. Основы курса истории России. М.: Простор, 2006, 637 с.
11. Поглубко К.А. Очерки истории болгаро-российских революционных связей (60-70-е годы XIX века). Кишинев: Штиинца, 1972, 311 с.
12. Ровняков А.А. В борьбе за свободу Болгарии: национально-освободительное движение болгарского народа и деятельность Георгия Раковского 30-60-е годы Х1Х века. Л.: Наука, 1980, 207 с.
13. Россия и освобождение Болгарии. М.: Наука, 1982, 191 с.
14. Франтишек Дворник. Славяне в европейской истории и цивилизации. М.: Языки славянской культуры, 2001, 799 с.

## БОЛГАРО – РОССИЙСКИЕ СВЯЗИ В 50– 60-е гг. XIX ВЕКА

**З.Н.НУРИЕВА**

### РЕЗЮМЕ

Особое место в истории многовековых связей болгарского народа с Россией занимают 50-60-е гг. Х1Х века. С конца 50-х гг. в разносторонних связях народов Болгарии и России начался новый этап.

Масштабность, многосторонность, историческое значение болгаро-российских связей 50-60-х гг. Х1Х века, обьясняют то внимание, которое уделяют им ученые СССР и Народной Республики Болгарии. Они глубоко раскрыли различные аспекты болгаро-российских политических, общественных, революционных, культурных связей в указанный период.

Развитие болгарского освободительного движения и его идеологии, формирование мировоззрения видных деятелей национального возрождения и становление культуры нового времени вся болгарская история последних десятилетий перед освобождением страны тесно переплетается с историей взаимосвязей болгарского народа и России. Поэтому в той или иной степени их касаются в своих исследованиях многие советские и болгарские ученые.

Расширение и укрепление болгаро-российских взаимоотношений имело в качестве своей равнодействующей прогрессивную направленность к решению исторически назревшего вопроса освобождения Болгарии.

## BULGARIAN-RUSSIAN RELATIONS IN THE 50-60-s OF THE XIX CENTURY

**Z.N.NURİYEVA**

### SUMMARY

50-60-s of the XIX century occupy special place in the centuries-old relations of Bulgarian people with Russia. From the end of the 50 –s diversified relations of Bulgarian people and Russia entered a new stage.

Multi-scaled, many-sided historical value of Bulgarian-Russian relations of 50-60-s of the XIX century explains the attention of the scientists of the USSR and the Republic of Bulgaria. They have deeply opened various aspects of Bulgarian-Russian political, public, revolutionaty, cultural ties in the specified period.

The development of the Bulgarian liberation movement and its ideology, formation outlooks, outstanding figures of national revival and the new culture's becoming all Bulgarian history of the last decades before the liberation of the country are closely bound with the history of interrelations of Bulgarian people and Russia. Therefore, many Soviet and Bulgarian scientists concern in the researches at some degree.

Expansion and strengthening of Bulgarian –Russian relations progressively conditioned the decision of the historically urgent question of Bulgaria's liberation.